**23 dekabr 2014-cü ilə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 yanvar 2015-ci il tarixli, 150 saylı müraciət üzrə**

# RƏYİ

**Bakı şəhəri** **11 yanvar 2015-ci il**

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Telman Nizaməddin oğlu Məmmədovun 107 saylı Qazax seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 81/217 saylı qərarının ləğv edilməsinə dair 9 yanvar 2015-ci il tarixli, 150 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli, 11/53-2 saylı qərarı ilə təsdiq edilmiş (23 iyul 2010-cu il tarixli 15/58-6 saylı və 19 oktyabr 2012-ci il tarixli 5/16 saylı qərarları ilə dəyişikliklər edilmiş) Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Müraciət etmiş şəxsə onun ərizəsi üzrə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd T.N.Məmmədov səsvermə günü 26 saylı seçki məntəqəsində ehtimal olunan qanun pozuntuları barədə 25 dekabr 2014-cü ildə Mərkəzi Seçki Komissiyasına müraciət etmiş, həmin müraciət Mərkəzi Seçki Komissiyasının 26 dekabr 2014-cü il tarixli 18/116 saylı qərarı ilə şikayət qismən təmin edilərək səslərin təkrar hesablanması və qanun pozuntularının araşdırılması üçün 107 saylı Qazax seçki dairəsinin dairə seçki komissiyasına göndərilmişdir. Həmin dairə seçki komissiyası tərəfindən 28 dekabr 2014-cü ildə mübahisələndirilən seçki məntəqəsi üzrə səslərin təkrar hesablanması prosesi həyata keçirilmiş və 81/217 saylı qərar qəbul edilmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsi üzrə 26 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının protokolundakı səsvermənin nəticələri səslərin təkrar hesablanmasına dair dairə seçki komissiyasının müvafiq protokolunda əks olunan nəticələrlə eynidir.

Bundan başqa səslərin təkrar hesablanması prosesini birbaşa müşahidə etmiş 26 saylı məntəqə seçki komissiyasının üzvləri F.S.Daşdəmirov, O.N.Allahverənov, M.M.Zamanov, B.K.Musayev, B.K.Hüseynov, Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin kifayət qədər səs toplamamış namizədlər S.N.Məmmədov, İ.T.Hümbətov, N.B.Həsənov, İ.V.Bayramov, müşahidəçilər T.K.Omarova, L.S.Omarova, C.M.Qurbanova tərəfindən verilmiş izahatlara və tərtib edilmiş aktlara əsasən səslərin təkrar

hesablanması prosesi Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçirilmiş, şikayətçi və onun müşahidəçiləri 26 saylı seçki məntəqəsi üzrə səslərin təkrar hesablanmasında iştirak etmiş, namizədlərə, xüsusilə T.Məmmədova səs verilmiş bülletenlərə onun özü və müşahidəçiləri tərəfindən bir-bir baxılması təmin edilmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələri haqqında protokolu ilə səslərin təkrar hesablanmasına dair dairə seçki komissiyasının protokolu arasında uyğunsuzluq aşkar edilməmiş və hər hansı bir qanun pozuntusu faktı müəyyən olunmamışdır.

Araşdırma prosesində iki dəfə Mərkəzi Seçki Komissiyasına gəlmiş və dəfələrlə telefon əlaqəsi saxlamış şikayətçi ərizəsində iddia etdiyi qanun pozuntularını təsdiq edən sənəd kimi ərizəyə əlavə olaraq yalnız ona hüquqi yardım göstərən şəxsə verdiyi notarial qaydada təsdiq olunmuş etibarnaməni təqdim etmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması ilə şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Beləliklə, aparılmış araşdırma nəticəsində belə qənaətə gəlmək olar ki, şikayət təmin edilməməli və 107 saylı Qazax seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 81/217 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7-ci və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Telman Nizaməddin oğlu Məmmədovun 9 yanvar 2015-ci il tarixli, 150 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 81/217 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**